# LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

**EU4Youth Məzunlar Şəbəkəsi**



**İcra müddəti:** 01.01.2020 - 31.07.2023

**ŞT ölkələri:**
Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

**Aİ-nin maliyyə yardımı:** € 311 000

**İcraçı təşkilat(lar):**
EU4Youth Coordination and Support, SALTO Eastern Europe and Caucasus Resource Centre, EU Neighbours East

**Sosial media hesablarına keçidlər:**

**Internet səhifəsi:** salto-youth.net/rc/eeca/infocentres/alumni/

**Layihənin təsviri:**
EU4Youth Məzunlar Şəbəkəsi EU4Youth, Erasmus+ Youth in Action və Avropa Həmrəylik Korpusu (European Solidarity Corps) proqramlarının gənc benefisiarlarını, eləcə də Şərq Tərəfdaşlığı ölkələrindən olan Gənc Avropa səfirləri şəbəkəsini bir araya gətirir. Şəbəkə tərəfdaş ölkələrdən olan məhdud imkanlı gənclərin həm öz icmalarında, həm də Aİ-nin yerdəyişmə proqramlarında daha çox iştirakını dəstəkləmək üçün onların qeyri-formal təhsil üzrə yerdəyişmə proqramlarındakı iştirakı vasitəsilə yaranan həvəs və könüllülük ruhunu səfərbər etmək məqsədi daşıyır.

**Gözlənilən nəticələr:**
2020-2021-ci illərdə ilkin mərhələdə şəbəkə Şərq Tərəfdaşlığı ölkələrinin hər birindən 10 və əlavə olaraq Rusiyadan 10 məzun olmaqla 70 gənci birləşdirib. Fəaliyyətlərə daxildir:
- İlkin təlim kursları: şəbəkənin hər bir seçilmiş üzvü Gürcüstan və ya Ukraynada gənclər təşkilatlarının nümayəndələri üçün ilkin təlim kursunu (6 günlük kurs) bitirmişdir.
- Mentorluq dəstəyi: məzunlar təlim kursları zamanı və məzunlar şəbəkəsinin tətbiqinin birinci ili ərzində gənclər təşkilatlarının peşəkar nümayəndələri - mentorlar tərəfindən dəstəklə təmin olunublar. Mentorlar öyrənmə prosesində, eləcə də məhdud imkanlı gənclər qrupları üçün yerli təşəbbüslərin həyata keçirilməsində məzunlara bələdçilik ediblər.
- Məhdud imkanlı qruplar üçün yerli təşəbbüslər: hər bir məzundan öz icmasındakı bir qrup məhdud imkanlı gənclər üçün yerli təşəbbüs hazırlamaq xahiş olunub. Təşəbbüsləri həyata keçirmək üçün məzunlar digər həmyaşıd məzunlarla birgə doqquz ay ərzində bu təşəbbüsləri həyata keçirmək üçün maliyyə, inzibati və mentorluq dəstəyi alıblar.
- Yekun qiymətləndirmə tədbiri: 2021-ci ildə məzunlar öz nailiyyətlərini, biliklərini və öyrəndiklərini bir-biri ilə və daha geniş auditoriya ilə bölüşdükləri yekun qiymətləndirmə tədbirində iştirak ediblər.

2021-ci ilin oktyabrında öz işinə başlayan yeni Məzunlar şəbəkəsi öz ölkələrindən olan məhdud imkanlı gənclərin yerli icmalarında və Aİ-nin yerdəyişmə proqramlarında daha çox iştirakını dəstəkləmək missiyasında 90-a yaxın gənci bir